# Şəhid qərənfillər...

**Esse**



1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet hərbi birləşmələri birbaşa Kremlin, cəllad Mixail Qorbaçovun əmri ilə zirehli silah-sursatlarla, tanklarla Bakıya, əliyalın xalqa hücum etdi. Minlərlə soydaşımız o gecə yaralandı. Suverenliyimiz, azadlığımız və müstəqilliyimiz uğrunda qurban gedən Vətən övladları sinələrini düşmən gülləsinə sipər edərək şəhid oldular.

Səhərisi gün Bakı yuxudan oyananda hər tərəf al-qırmızı boyanmışdı. Yollara, küçələrə qar əvəzinə elə bil qan ələnmişdi.

Həmin gün dan yeri söküləndə Vətənin hər səmtində bitən, toyların, şənliklərin yaraşığı olan qərənfillərin də qırğını başladı. Qərənfil köçü başlamışdı. Qərənfillər özlərini ölənlərə, tankların altında əzilmiş insanlara, sahibinin qanına boyanmış minik maşınlarına yetirdilər. Bakını qarış-qarış gəzən qərənfillər şəhid qanı ilə boyanmış torpağı qucaqladılar, göz yaşı axıtdılar.

Qərənfillər dəstələrə bölündülər. Qanlı torpaqları qucaqlayan qərənfillər torpaqdan seçilmirdilər. Onlar şəhidlərin qanı ilə bir rəngdə idilər. Qərənfillər şəhidlərin soyumuş, buza dönmüş cəsədlərinin üstünə isti örtük kimi çəkilirdilər. Qərənfillərin qan rəngli göz yaşları sahiblərindən ayrı düşmüş qolların, ayaqların, başların üstündə ağı deyirdilər...

Başqa bir dəstə qərənfil hönkürə-hönkürə sahibləri ilə birlikdə xıncım-xıncım olmuş minik avtomobillərinin, təcili yardım maşınlarının üstünü örtməyə çalışırdılar...

Sübh günəşi hələ də gözə dəymirdi. Gecəki qanlı qırğına şahidlik edən Ay isə hələ gecə ikən xəcalətindən qaçıb gizlənmişdi.

Günəşdən də, insanlardan da tez özünü şəhidlərə yetirmişdi qərənfillər. Ah, bir zaman toyların, şənliklərin yaraşığı olan qərənfillər! Dərilərkən sevincindən, xoşbəxtliyindən alışıb yanan al-qırmızı qərənfillər toy libaslarını öz ətirlərinə qərq edərdilər. Ən gözəl günlərin ən gözəl, şahanə hədiyyəsi olan qərənfillər! Nazlı qərənfillər! Gəlin qərənfillər!

Ah, fədakar qərənfillər! Ana qərənfillər! Bacı qərənfillər! Hamıdan əvvəl şəhidlərin harayına yetən qərənfillər!

Qan rəngində, şəhid rəngində özünü Bakıya çatdıran qərənfillər! Tez gəldiniz. Gəldiniz ki, bəlkə şəhidlərə can verəsiniz. Gəldiniz ki, şəhidlərin yaralarına məlhəm kimi bağlanasınız.

Torpağa tökülən şəhid qanlarının bir damlası da açıqda qalmamışdı. Siz şəhidlərin canını, qanını qorumağa çalışırdınız. Vəhşiləşmiş, quduzlaşmış əsgərlərin şəhid qanı ilə suvarılmış torpağı yenidən güllələyəcəyindən, tapdalayacağından qorxurdunuz.

Elə bil and içmişdiniz, söz vermişdiniz. Söz vermişdiniz ki, torpaqdan ancaq şəhidlərlə birlikdə ayağa qalxacaqsınız. Axı bir çoxunuzu hələ sağ olan yaralılarla birlikdə əsgərlər yenidən güllə yağışına tutmuşdular, çəkmələri ilə tapdalayıb keçmişdilər...

Ah, şəhid qərənfillər! Ah, qan rəngində doğulan çiçəklər!

Ana-bacıların axıtdığı göz yaşlarının dənizində boğulan qərənfillər! Dünyaları gözlərində zülmətə dönən qərənfillər! Ah-nalələri, dərdləri Tanrıya ucalan çiçəklər...

...Şəhidlər insan selinin çiynində məzara üz tutanda da tabutları görünməz etmişdiniz. Elə bil siz də şəhid olduğunuzu hamıya göstərmək istəyirdiniz. Özünüzü ahlara, nalələrə, fəryadlara, qanlı göz yaşlarına göstərirdiniz. Dil açıb deyirdiniz ki, baxın, biz də şəhid olmuşuq. Elə bil bununla Vətənə də, ana-bacılara da təsəlli vermək istəyirdiniz. Deyirdiniz ki, biz Vətən adıyla dünyaya gəlmişdik, Vətən adıyla da torpağa gedirik.

Fədakar qərənfillər! Şəfqətli qərənfillər! Şəhidlər qanına boyanan çiçəklər!

Sizdən sonra dünyaya göz açan bütün - ağ, sarı, narıncı... qərənfillər də sizin rənginizdə, şəhid rəngində olacaqlar, sizi ziyarətə gələcəklər.

Şəhid qərənfillər! Vətəndaş qərənfillər!

**Ümbülbanu HACIYEVA,**
*Gəncə Dövlət Universitetinin əməkdaşı, yazıçı-publisist*